


## Hikmət Babaoğlu Nərimanov rayonunda seçicilərlə növbəti görüşü



Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) 19 saylı Nərimanov birinci seçki dairəsindən deputatlığa namizədi Hikmət Babaoğlu Nərimanov rayonu Əliyar Əliyev-11 ünvanında seçicilərlə görüş keçirib.

Görüşü açan YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev partiyamızın bu seçkilərdə qələbə qazanacağına əmin olduğunu bildirib. T.Tağıyev vurğulayıb ki, partiyamız parlament seçkilərinə böyük inamla gedir. O, 19 saylı Nərimanov birinci seçki dairəsindən partiyanın deputatlığa namizədinin növbəti dəfə Hikmət Babaoğlu olduğunu bildirib. O, YAP-ın deputatlığa namizədi Hikmət Babaoğlunun tərcümeyi-halı, əmək və elmi-siyasi fəaliyyəti, eləcə də ötən 5 ilə yaxın müddətdə deputat kimi gördüyü işlər haqqında geniş məlumat verib.



19 saylı Nərimanov birinci seçki dairəsindən YAP tərəfindən namizədliyi irəli sürülmüş Hikmət Babaoğlu seçiciləri salamlayaraq görüşə gəldikləri üçün təşəkkür edib. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu YAP-ın üzvü olaraq seçkilərdə namizəd kimi iştirak etdiyi üçün fəxr hissi keçirdiyini bildirən Hikmət Babaoğlu deyib ki, partiya yarandığı vaxtdan bu günədək azərbaycançılıq ideologiyası və müstəqillik prinsipi ilə böyük uğurlar əldə edib. Onun sözlərinə görə, bu yol bundan sonra da eyni ideologiya və prinsip əsasında yeni hədəflərə doğru davam edəcək: “Mənim üçün həm şərəf, həm də məsuliyyətdir ki, regionun ən güclü partiyası olan Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyim irəli sürülüb. Mən bu etimadı doğruldacağıma, sizlərin verəcəyiniz səslərə layiq olacağıma söz verirəm və əminəm ki, bundan sonrakı dövrdə də birlikdə böyük nailiyyətlər əldə edəcəyik. Ona görə ki, Yeni Azərbaycan Partiyasının namizədlərinin arxasında nəhəng siyasi güc və 750 minə yaxın insanın siyasi iradəsi dayanıb”.



Hikmət Babaoğlu Milli Məclisdə fəaliyyəti dövründə Nərimanov rayon seçicilərini layiqincə təmsil etməyə çalışdığını söyləyib. Onun sözlərinə görə, mütəmadi olaraq seçicilərlə görüşlər keçirilib, onların qaldırdıqları məsələlər parlament tribunasından səsləndirilib, eləcə də həll edilməsi üçün aidiyyəti dövlət qurumlarına ünvanlanıb: “Belə ki, deputat kimi fəaliyyətim ərzində vətəndaşlar tərəfindən ünvanımıza 118 şifahi və 97 yazılı müraciət daxil olub. Qeydə alınan 215 müraciətdən 100 müraciət tam olaraq həllini tapıb, 60 müraciət qismən təmin edilib, 40 müraciət aidiyyəti qurumlara göndərilib və yerdə qalan müraciətlərlə bağlı lazımi izahatlar verilib”.

Deputatlığa namizəd qeyd edib ki, bu gün Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlara imza atır, ölkəmiz hər bir sahə üzrə dinamik inkişaf edir. YAP-ın seçkilərə “Daha güclü Azərbaycan naminə!” şüarı ilə getdiyini deyən deputatlığa namizəd partiyamızın və dövlətimizin bu hədəfə nail olacağına əminliyini ifadə edib.

Görüşdə çıxış edən seçicilər qarşıdan gələn parlament seçkilərində YAP-ın namizədi Hikmət Babaoğluna səs verəcəklərini bəyan ediblər.

Görüşdə həmçinin seçiciləri maraqlandıran suallar cavablandırılıb.

Hazırladı: **Məhərrəm Ağalaroğlu, *“İki sahil”***

## İlham Məmmədov Yevlaxın Yeni Çobankərə kəndində şəhid ailəsini ziyarət edib

48 saylı Yevlax seçki dairəsi üzrə YAP-dan deputatlığa namizəd İlham Məmmədov təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Yeni Çobankərə kəndində şəhid atası Əsgərov Adil Mahmud oğlunun evində qonaq olmuşdur. Onun oğlu İmran Əsgərov torpaqlarımız uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Şəhid ailəsinin qayğı və problemləri ilə maraqlanan, onların fikir və arzularını dinləyən İlham Məmmədov bildirib ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər hər zaman olduğu kimi bundan sonra da dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunacaq.

İlham Məmmədov həmçinin seçki platformasından da danışaraq, Yeni Azərbaycan Partiyasının bütün namizədlərinin Milli Məclisdə təmsil olunmağa layiq olduqlarını bildirib.

Görüşdə şəhid atası Adil Əsgərov bildirib ki, deputatlığa namizəd İlham Məmmədov bir millət vəkili kimi hər zaman onların problemləri ilə maraqlanıb. O, göstərilən diqqət və qayğıya görə cənab Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürünü bildirib. Bir ağsaqqal kimi 9 fevralda keçiriləcək parlament seçkilərində özünün, ailə üzvlərinin və kəndin əksər seçicilərinin seçiminin yalnız Yeni Azərbaycan Partiyasının namizədi olacağını bildirib.







Şəhid İmran Əsgərovun həyat yoldaşı Hicran Əsgərovanın səhhəti ilə maraqlanan İlham Məmmədov ona lazım olan bütün köməkliyin göstəriləcəyini qeyd edib.

## Aytən Hüseynova Səbail rayonunun Badamdar qəsəbəsi seçiciləri ilə görüşdü

Yeni Azərbaycan Partiyasının 29 saylı Səbail seçki dairəsi üzrə namizədi Aytən Hüseynova təbliğat-təşviqat kampaniyası çərçivəsində yanvarın 30-da Badamdar qəsəbəsi sakinləri ilə görüşdü.





Seçicilərə seçki platforması və seçiləcəyi təqdirdə deputat kimi qarşıya qoyduğu hədəflər haqqında ətraflı məlumat verən YAP namizədi sakinlərlə onları maraqlandıran məsələlər ətrafında müzakirələr apardı, onların təkliflərini dinlədi və müvafiq qeydlər apardı. Xoş əhval-ruhiyyədə keçən fikir mübadiləsi zamanı vurğulandı ki, vətəndaşın rifahı ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasətinin başlıca prioritetidir və sosial siyasət, ölkəmizin sosial-iqtisadi inkişaf göstəricilərinin ildən-ilə daha da yüksəlməsi hər zaman olduğu kimi partiyanın növbəti 5 il üçün nəzərdə tutulan əsas hədəfləri sırasındadır.

Yeni Azərbaycan Partiyasının siyasət kursuna dəstəklərini ifadə edən Badamdar qəsəbəsi sakinləri seçki günü məntəqələrə gələrək siyasi mövqelərini nümayiş etdirəcəklərini bildirdilər.

